# Dahi rəhbərə sonsuz el məhəbbəti

## Qəbələdə ulu öndərin xatirəsi ehtiramla anıldı




(Əvvəli 1-ci səhifədə).

Heydər Əliyev bütün dünya azərbaycanlılarının ümummilli lideri kimi onları vahid ideya—azərbaycançılıq ideologiyası ətrafında birləşdirmək üçün əvəzsiz iş görmüşdür və nəticədə bütün dünya azərbaycanlılarının vahid birləşdirici simvolu məqamına yüksəlmişdir.

Ulu öndərin bu anım günündə xalqımız eyni zamanda qürur hissi keçirir ki, təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycan dövlətinin öz milli mənafelərinə uyğun olan daxili və xarici siyasəti bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir, onun prezidentlik fəaliyyəti dövründə gördüyü işlər, daxili və xarici siyasət xətti bütövlükdə Azərbaycan xalqının xoşbəxt gələcəyinə, firavanlığına, sosial-iqtisadi, mədəni həyatının daha da çiçəklənməsinə zəmin yaratmışdır.



Ulu öndər Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar anım günü ölkəmizin hər yerində olduğu kimi, Qəbələ rayonunda da böyük ehtiramla qeyd olunmuşdur.

Dekabrın 12-də sübh tezdən on minlərlə qəbələli dahi rəhbərin xatirəsinə ehtiramlarını bildirmək üçün onun abidəsinin ucaldığı Heydər Əliyev bağına axışırdı.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, RİH aparatının, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin, təhsil, səhiyyə, mədəni-maarif ocaqlarının, özəl qurumların kollektivləri, ictimaiyyətin nümayəndələri də burada idi.



Saat $12^{00}$-da başlanan mərasimdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin ardınca on minlərlə insan ulu öndərin abidəsi önünə gül-çiçək dəstəsi düzmüş, ehtiramlarını bildirmişlər. Sonra ulu öndərin xatirəsinə ehsan süfrəsi açılmış, ruhuna dualar oxunmuşdur.

Anım tədbiri axşama qədər davam etdi.

**Qüdrət SƏMƏDOV,**
**İlkin Vəlizadə (foto).**
**«Qəbələ»**

# Yerli özünüidarəetmənin inkişafı: mövcud vəziyyət və perspektivlər mövzusunda konfrans keçirilib

***Dekabrın 7-də Qəbələdə Prezident Administrasiyasının ərazi-təşkilat şöbəsinin bələdiyyələrlə iş sektorunun dəstəyi, Milli Məclisin regional məsələlər komitəsinin, Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyalarının və Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Azərbaycanda yerli özünüidarəetmənin inkişafı: mövcud vəziyyət və perspektivlər" mövzusunda konfrans keçirilib.***



Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, ulu öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər. Sonra Heydər Əliyev Mərkəzinə gələn qonaqlar dahi şəxsiyyətin siyasi fəaliyyətini əks etdirən ekspozisiyaya baxıblar.

Milli Məclisin regional məsələlər komitəsinin 6 üzvünün, Ədliyyə Nazirliyinin nümayəndələrinin, 90 şəhər, qəsəbə və kənd bələdiyyələri sədrlərinin iştirakı ilə "Qafqaz Sport" Oteldə keçirilən konfransda Milli Məclisin regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə, komitənin sədr müavini Fəttah Heydərov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Ədliyyə Nazirliyinin bələdiyyələrlə iş mərkəzinin rəisi Zahir Əlizadə çıxış edib.

Natiqlər Azərbaycanda yerli özünüidarəetmənin inkişafı sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr barədə fikirlərini bölüşüblər.

Qonaqları bütün qəbələlilər adından salamlayan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxışında demokratik, hüquqi inkişaf yolunu tutmuş dövlətlərdə olduğu kimi Azərbaycanda bələdiyyələrin artıq 20 ilə yaxın bir dövrdə fəaliyyət göstərdiyini qeyd edərək, bu özünüidarəetmə orqanının yaranmasının, formalaşmasının və hüquqi bazasının ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Bu illər ərzində kifayət qədər təcrübə toplamış bələdiyyələrimizin əksəriyyətinin əhali arasında böyük nüfuz qazandığını diqqətə çatdıran Səbuhi Abdullayev bələdiyyələrin işinin daim təkmilləşdirilməsi və fəallaşdırılması istiqamətində ulu öndərin tövsiyələrinin ölkə Prezidenti möhtərəm cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, bələdiyyələrin işinə müvafiq dövlət dəstəyinin göstərildiyini, onların işinə yersiz müdaxilələrin yol verilmədiyini və qanun çərçivəsində müstəqil fəaliyyətləri üçün hər cür şəraitin olduğunu vurğulayıb.

O, 1999-cu ildə keçirilən ilk bələdiyyə seçkilərində ölkədə, o cümlədən rayonumuzun kiçik ərazi vahidlərində bələdiyyələrin yaradıldığını, lakin həmin bələdiyyələrin vəzifələrinin yerinə yetirilməsində çətinlik çəkdiklərini və ona görə də ölkə başçısının tövsiyəsi ilə 2014-cü ildə birləşdirilərək daha böyük özünüidarəetmə orqanına çevrildiklərini diqqətə çatdırıb. Həmin ilin bələdiyyə seçkilərində həyata keçirilən bu proses nəticəsində Qəbələ rayonu ərazisində əvvəllər fəaliyyət göstərən 55 bələdiyyənin sayının indi 29 olduğunu və vəzifələrini daha müvəffəqiyyətlə yerinə yetirə bildiklərini bildirib.



Hazırda rayon ərazisində 1 şəhər, 3 qəsəbə, 25 kənd bələdiyyəsinin fəaliyyət göstərdiyini deyən Səbuhi Abdullayev onların əksəriyyətinin yaşayış məntəqələrinin abadlaşdırılması, ərazidəki sosial-iqtisadi problemlərin həlli sahəsində qarşılarına qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəldiyini, Bum, Əmirvan, Zalam və Bayramkoxalı bələdiyyələrinin işinin daha təqdirəlayiq olduğunu qeyd etmişdir.

RİH-nin başçısı Prezident cənab İlham Əliyev tərəfindən qeyri-neft sektorunun inkişaf etdirilməsinin mühüm məsələ kimi qarşıya qoyulduğunu və rayonumuzda bununla bağlı mühüm layihələrin həyata keçirildiyini deyib. Ölkə başçısının qeyd etdiyi kimi Qəbələnin respublikamızda Bakı şəhərindən sonra ikinci ən böyük turizm-istirahət məkanı olduğunu, burada istehsal edilən yüksək keyfiyyətli sənaye və kənd təsərrüfatı məhsullarının dünyanın 30-dan çox ölkəsinə ixrac olunduğunu bildirib.

Səbuhi Abdullayev ölkə başçısının tapşırığına əsasən ixrac yönümlü, dünya bazarlarında böyük tələbat duyulan barama, tütün və fındıq məhsulları istehsalının rayonumuzda artırılması işlərinin uğurla davam etdirildiyini, iqtisadiyyatımız üçün çox vacib olan bu sahələrin inkişafı istiqamətində bələdiyyələrin üzərinə böyük vəzifələr düşdüyünü diqqətə çatdırıb.

(Ardı 3-cü səhifədə).